**ATAMOĞLAN MƏMMƏDLI**
*BDU-nun dosenti*

# TALİBAN HAKIMIYYƏTI ILLƏRINDƏ İRAN-ƏFQANISTAN ƏLAQƏLƏRİ

Taliban qüvvələri tərəfindən 1996-cı ilin sentyabrında Kabulun ələ keçirilməsindən sonra Rəbbani ölkənin şimalına qaçdı və faktiki olaraq ƏİD-də hakimiyyətini itirdi. Beləliklə vəziyyət kəskin surətdə dəyişdi. Belə bir şəraitdə prezident Haşimi-Rəfsəncani Əfqanıstanda sülhə nail olmağın yeganə yolunun ölkədəki bütün fraksiya və etnik qruplaşmaların iştirakilə. dinc danışıqlar vasitəsilə həyata keçirilməsində gördüyünü bəyan etdi. Bu zaman Pakistanın baş naziri B.Bhutto da Əfqanıstanda böhranı nizama salmaq üçün İran hakimiyyət orqanlarını birgə səylərə çağırdı.

Bu dövrdə Əfqanıstan münaqişəsinin nizama salınması üzrə İran diplomatiyasının fəaliyyətini dörd əsas istiqamətə ayırmaq olar: 1) Rəbbani hökuməti ilə dövlətlərarası əlaqələrin genişləndirilməsi; 2) Rəbbani rejimi ətrafında onun siyasi opponentlərinin birləşdirilməsi səyləri; 3) Əfqan məsələsində İslamabad ilə əməkdaşlığa çalışılması və məsləhətləşmələr aparılması; 4) Rəbbani hökuməti və Pakistan arasında münasibətlərin nizama salınması cəhdləri.

Əfqanıstanın böyük hissəsini işğal edən tariblərin silahlı qüvvləri İran ilə sərhədboyu əraziləri İXMT-nin fəaliyyəti üçün ayırmışdı (4, 143). Belə bir şəraitdə 1996-cı ilin oktyabrında Tehranda Əfqanıstan probleminin dinc yolla nizama salınmasına dair regional konfrans keçirildi. Forumun işində Rusiya, İran, Türkmənistan, Türkiyə və digər ölkələrlə yanaşı həm də BMT, Aİ, ATƏT və İKT nümayəndələri iştirak etdilər. İranın xarici işlər naziri Ə.Vilayəti bildirmişdi ki, «region ölkələri Əfqanıstandakı hadisələrə görə məsuliyyət daşıyırlar» (8). Buna baxmayaraq, Pakistan ilə Səudiyyə Ərəbistanı öz nümayəndələrini konfransa göndərmədilər.

İki ölkə arasındakı münasibətlərin dördüncü mərhələsində İİR və qatı sağ təməlçi «Taliban» hərəkatı arasındakı münasibətlərdə ciddi kəskinləşmə baş verdi. Qeyd etmək lazımdır ki, Tehran 1996-cı ildə devrilmiş ƏİD prezidenti B.Rəbbanini və həmçinin əfqan şiələrini fəal surətdə müdafiə etməyə başladı.

Milliyyətcə puştu olan taliblər islamın sünni məzhəbinə etiqad edirdilər və bütövlükdə şiə məzhəbi əleyhinə, xüsusilə də İran yönümlü şiəlik əleyhinə geniş kampaniyaya başladı (2, 7). Bundan əlavə, taliblər ölkəyə nəzarəti əsasən ələ keçirdikdən sonra hətta Əfqanıstan çərçivəsində taciklərə, özbəklərə, türkmənlərə və digər milli azlıqlara hər hansı şəkildə muxtariyyət və müstəqillik verilməsindən qətiyyətlə imtina edirdi. İran, təbii olaraq şiəliyin mərkəzi kimi bununla barışa bilməzdi və ölkənin böyük hissəsini ələ keçirmiş taliblər ilə Tehranın münasibətləri daha da pisləşməyə başladı (1,13).

Talibanın hakimiyyəti möhkəmləndikcə İranın ona qarşı mövqeyi yumşalmağa başladı. Talibanın nəzarəti altında olan ərazilərdə İran konsulluğunun açılması, beynəlxalq hüququa görə, tam da olmasa diplomatik tanınma (de-fakto) hesab olunurdu (6, 247). İranın Əfqanıstan ilə danışıqları rəsmi gönüşlər çərçivəsində G.Hikmətyar, general R.Dustum ilə, sonralar isə Taliban rəhbərliyilə aparıldı. Buna görə də İranın rəsmi mətbuatı İslamabadın və onun müdafiə etdiyi taliblərin ünvanına tənqidi fikirlərdən məharətlə yayındı. Bu zaman Tehranın Əfqanıstan siyasətinin başlıca əlaqələndiricisi İİR xarici işlər nazirinin Asiya və Sakit Okean regionu üzrə müavini Ələddin Borucerdi idi. İranın həmin ölkələrdəki səfirləri onun Kabul və İslamabaddakı fəaliyyətinə böyük köməklik göstərirdilər.

Taliban hökuməti 1996-cı ilin noyabrında Tehranı antitaliban koalisiyanı, yəni general Dustumu və Əhməd Şah məsudu müdafiə etməkdə təqsirləndirdi. Hətta Talibanın rəhbərliyi ilk dəfə olaraq Tehranı hədələdi. Taliban tərəfindən Kabuldan qovulmuş Əfqanıstan prezidenti B.Rəbbani yaranmış vəziyyətlə əlaqədar olaraq İran rəhbərliyi ilə danışıqlar aparmaq üçün Tehrana iki günlük səfər etdi. Kabulun taliblər tərəfindən tutulmasına baxmayaraq, İran tərəfi Rəbbani hökumətini Əfqanıstanda yeganə legitim hakimiyyət kimi tanıyırdı. Buna görə də 1996-cı il dekabrın əvvəllərində prezident B.Rəbbani Əfqanıstan hökumət nümayəndə heyətinin başında Tehrana səfər etdi. Səfər zamanı Əfqanıstanda və bütövlükdə regiondakı vəziyyət müzakirə olundu.

Qeyd edək ki, Talibanın Əfqanıstanda hakimiyyətə gəlişi nəinki bu ölkənin siyasi tarixində yeni mərhələnin başlanğıcını qoydu, eyni zamanda Orta Şərq regionunda vəziyyətə əsaslı surətdə təsir göstərdi. Məlum olduğu kimi, Talibanın hakimiyyətə doğru yüksəlişi 1994-cü ilin oktyabrından başlamışdı. Taliban silahlı birləşmələri tərəfindən Əfqanıstan ərazisinin 75 faizinin nəzarət altına alınması ölkədə B.Rəbbani rejimini və digər hərbi-siyasi qruplaşmaları siyasi periferiyaya sıxışdırdı. İran qonşu Əfqanıstanda baş verən hadisələrin sürətlə dəyişməsini həyəcanla izləyirdi. Bu ölkədə cərəyan edən hadisələrin xarakteri təkcə daxili inkişafın dinamikası ilə deyil, xeyli dərəcədə bu regionda milli maraqlarının olduğunu bildirən digər dövlətlərin səyləri və siyasətilə müəyyən olunurdu. Bu dövlətlərin sırasında ABŞ, SƏK və Pakistanı göstərmək olar. Əfqanıstanın siyasi arenasında onların təzahür etməsi Tehranı çox qıcıqlandırırdı (5,239).

1997-ci ilin ortalarına doğru İran ilə Taliban hökuməti arasında münasibətlər daha da kəskinləşdi. İyunun əvvəllərində Taliban hakimiyyət orqanlarının sərəncamı ilə İranın Kabuldakı səfirliyi bağlandı. Buna bəhanə kimi, guya iranlı diplomatlar tərəfindən əfqan xalqları arasında iğtişaşların qızışdırılması fikrini əsas gətirirdilər. Beləliklə, iranlı diplomatlar 48 saat ərzində ölkədən çıxarıldılar. İran tərəfi öz diplomatlarını geri çağırsa da Əfqanıstana humanitar yardımını davam etdirəcəyini bildirdi (15). İİR hökumətinin Əfqanıstan problemi üzrə təmsilçisi Ə.Borucerdi 1997-ci il iyulun 7-də Əfqanıstanın şimalında Məzari-Şərifdə olarkən ölkə prezidenti B.Rəbbani ilə görüşmüş və əfqan qruplaşmalarını öz aralarındakı ziddiyyətləri danışıqlar masası arxasında həll etməyə, həmçinin dünya ictimaiyyətini də Əfqanıstanın qanuni hökumətini müdafiə etməyə çağırdı. Zaman sonralar İranın bu çağırışının düzgün olduğunu sübut etdi.

1997-ci ilin iyulunda Əfqanıstan Milli Qurtuluş Cəbhəsinin rəhbəri S.Mocəddedi Tehrana səfər etdi. O, mövcud şəraitdə kompromisə getməyi real hesab edən liderlərdən biri idi. İİR xarici işlər naziri Ə. Vilayəti ilə apardığı danışıqlar zamanı belə bir ortaq fikir əldə olundu ki, Əfqanıstandakı hadisələr hər hansı bir qruplaşma tərəfindən hakimiyyətin inhisara alınması ideyasının utopiya olduğunu inandırıcı surətdə sübut etdi.

Bu dövrdə İran qoşunlarının Əfqan sərhədləri boyunca yerləşən bölgələrdə genişmiqyaslı hərbi təlimləri keçirildi. Əslində təlimləri zəruri edən amil, bu regiondan narkotik maddələr qaçaqmalçılığı üçün fəal istifadə olunması idi. Maraqlıdır ki, Əfqanıstanın qərb vilayətləri Taliban qüvvələri tərəfindən tutulduqdan sonra bu ölkədə və Pakistanda becərilən narkotik maddələrin İran ərazisi vasitəsilə tranzitinin vəziyyəti xüsusilə gərginləşdi.

Tehran rəhbərliyi Əfqanıstan ətrafında məsələnin dincliklə nizama salınması yolunda öz səylərini davam etdirdi. Məhz onun təşəbbüsü ilə 1997-ci ilin dekabrında İsfahanda əfqan liderlərinin və səhra komandirlərinin üç günlük müşavirəsi keçirildi (17). Lakin Taliban hərəkatının rəhbərliyi bu müzakirələrə qatılmaqdan imtina etdi. Müşavirənin işində Əfqanıstan prezidenti B.Rəbbani, vitse-prezident S.Pərvani, Əfqanıstan

İslam Partiyasının lideri G.Hikmətyar, Əfqanıstan İslam və Milli Hərakatının lideri M.Möhsüni, həmçinin yüzlərlə əfqan üləması, dini təhsil müəssisələrinin tələbələri, əfqan silahlı qruplaşmalarının liderləri iştirak edirdilər. Müşavirə iştirakçılarının başlıca vəzifəsi əfqanlararası nizamasalmanın əməli planının hazırlanmasından ibarət idi.

İran tərəfinin fəal iştirakı ilə əfqan problemi 1997-ci ilin dekabrında Tehranda İKT-nin sammitində müzakirə olunan mühüm məsələlərdən biri oldu. Maraqlıdır ki, Əfqanıstan üzrə qətnaməni İran və Pakistan ekspertləri birgə hazırlamışdılar. İslam dövlətləri başçıları tərəfindən bəyənilən bu sənəddə atəşin dərhal dayandırılması və dinc danışıqların başlanması çağırışı öz əksini tapmışdı. Bu sammitdən sonra da İran ilə Pakistan öz birgə səylərini daha da artırdılar. 1998-ci ilin yanvarında Tehranda əfqan problemi ilə əlaqədar nizamasalma üzrə İran-Pakistan məsləhətləşmələri keçirildi. Pakistanın nümayəndəsi bildirmişdi ki, «biz, talibləri danışıqlara başlamağa meyllən-dirmək üçün mümkün olan hər şeyi edirik» (11). İran tərəfdən çıxış edən Ə.Borucerdi isə bildirmişdi ki, geniş əsasda Əfqanıstan hökumətinin formalaşdırılması kollektiv səylər tələb edir. Belə bir hökumət olmadan əfqanlar daxili silahlı münaqişə sonsuz davam edə bilər.

Əfqanıstanda böhranın tezliklə nizama salınmasında həm İran, həm də Pakistan olduqca maraqlı idi. 1998-ci il yanvarın sonunda Əfqanıstan üzrə İranın xüsusi nümayəndəsi Ə.Borucerdi başda olmaqla dövlət nümayəndə heyəti Məzari-Şərifdə oldu. Bu səfərin başlıca məqsədi əfqan qruplaşmaları arasında dinc dialoqu yoluna qoymaq imkanları haqqında danışıqlar aparmaqdan ibarət idi.

Məlum olduğu kimi, İKT-a sədrlik edən İran, qonşu Əfqanıstanda baş verən hadisələr üçün xüsusi məsuliyyət daşıyırdı. Bu fikri BMT-nin Əfqanıstandakı xüsusi nümayəndəsi Ləhdar Brahimi də təsdiq etmişdi. O, İrana etdiyi 3 günlük səfərdən sonra bildirmişdi ki, Əfqanıstan böhranının nizama salınmasında İran və Pakistan həlledici rol oynamalıdırlar (12).

Bu dövrdə Əfqanıstan bölgəsinə dünya ictimaiyyətinin diqqətinin artması həm də iki əsas qayğıdan irəli gəlirdi: terrorizm və narkomaniya. Məlumata görə narkomanlığın çiçəklənməsində xeyli dərəcədə Əfqanıstandakı mövcud durum münbit şərait yaradırdı. Belə ki, Böyük Britaniyada istehlak edilən narkotik maddələrin 85 faizi əfqan mənşəli hesab olunurdu. 1998-ci ilin avqustunda İİR prezidenti Məhəmməd Xatəmi əfqanların «Taliban» hərəkatının rəhbərlərinə xəbərdarlıq etmişdi ki, Tehran özünün şərq sərhədləri boyunca gərginliyin artmasına dözməyəcəkdir. O, talibləri müdafiə etdiyinə görə ABŞ-ı təqsirli bilmişdi. Öz növbəsində Taliban rəhbərliyi Tehranı Əfqanıstanın işlərinə «qarışmamağa» çağırmışdı.

Belə bir şəraitdə, Səudiyyə Ərəbistanı və Pakistan ilə yanaşı BƏƏ-nin də Əfqanıstanda Taliban rejiminin legitimliyini rəsmi tanıması vəziyyəti daha da gərginləşdirdi. Bununla yanaşı, 1998-ci il avqustun 8-də, əvvəllər İranın müdafiə etdiyi «Şimal alyansı»nın əlində olan Məzari-Şərif tutulan zaman 50 iranlı girov götürüldü. Bununla əlaqədar olaraq İİR-in dini rəhbəri Seyid Əli Xamenei Talibanın liderlərini kəskin tənqid etdi. Taliban rəhbərliyi kəskin mövqe tutaraq İran hökumətinə müraciətində ondan «özünün tamamilə səhv mövqeyinə» yenidən baxmasını xahiş etdi. Əfqanıstandakı hadisələri müzakirə etmək üçün İran parlamentinin qapalı sessiyası keçirildi.

İranın əvvəlcədən etdiyi xəbərdarlığa uyğun olaraq 1998-ci il sentyabrında ölkənin Əfqanıstan ilə sərhədboyu vilayətlərində İran qoşunlarının irimiqyaslı hərbi təlimləri başlandı. «Aşura-3» şərti adı altında keçirilən bu təlimlərə 70 mindən çox hərbi qulluqçu qatılmışdı. Belə bir şəraitdə mövcud durumu real qiymətləndirən İİR lideri Əli Xamenei Taliban hərəkatı ilə hər hansı qarşıdurma imkanını inkar etmişdi. O qeyd et-

mişdi ki, İİR hər hansı gözlənilməz hadisəyə hazır olsa da taliblərlə silahlı toqquşmaya yol verməz (13).

İranın dözümlü münasibətinə baxmayaraq, taliblər onsuz da ağır olan vəziyyəti daha da gərginləşdirirdilər. Sentyabrın 11-də Əfqanıstanda əsirlikdə olan 7 iranlı diplomat taliban döyüşçüləri tərəfindən öldürüldü. BMT TŞ iranlı diplomatların qətlə yetirilməsinin tezliklə təhqiq olunmasını tələb etdi. Ümumiyyətlə, iranlı diplomatların qətlə yetirilməsi ilə əlaqədar sentyabrın 12-dən başlayaraq İranda üç günlük ümummilli matəm elan olundu.

1998-ci il sentyabrın 12-də İranın Ali Milli Təhlükəsizlik Şurası ölkənin Milli maraqlarının müdafiəsi, regionda sülh və təhlükəsizliyin qorunub saxlanılması üçün hökumətə bütün mümkün vasitələrdən istifadə etmək səlahiyyətləri verdi. Bu dövrdə Əfqanıstanın Bamian vilayətində xəzərlərin kütləvi surətdə edam olunması halları baş verirdi. İran tərəfi taliblərin şiə xəzər əhalisinə münasibətdə yeritdiyi qırğın siyasəti əleyhinə qəti etirazını bildirdi. Taliban rəhbərliyi belə bir sərəncam yaymışdı ki, xəzərlərin qanı töküləbilər, bu millətin 7 yaşdan yuxarı bütün nümayəndələri öldürülməlidir.

Bütün bunlarla əlaqədar olaraq İranın dini rəhbəri Əli Xamenei islam dünyasının dini rəhbərlərinə müraciət edərək onları müdafiəsiz qalmış xəzərlərə kəsərli kömək göstərməyə çağırdı. O qeyd edirdi ki, «əfqan xalqı talibanın vəhşiliyinin qurbanı olmamalıdır» (14).

İki ölkə arasında vəziyyətin gərginləşdiyi bir şəraitdə İran hökuməti Əfqanıstan ilə həmsərhəd bölgələrə hər birində 30 min nəfər olan 3 ordu diviziyası yeritdi. İslam inqilabı keşikçiləri korpusunun 70 min döyüşçüsü cəmləşdirildi. Bununla əlaqədar olaraq yaranmış böhrən Bamian şəhəri tutulduqdan sonra İran və Taliban hökumətləri arasında münasibətləri daha da kəskinləşdirdi. Dini rəhbər Əli Xamenei bildirmişdi ki, «əgər Pakistan Talibana göstərdiyi yardımı dayandırsa» fəlakətdən yaxa qurtarmaq olar. Öz növbəsində Taliban hərəkatının lideri mola Məhəmməd Ömər guya xoş məram nümayiş etdirərək İran tərəfini «taliblər ilə BMT qanunlarına əsasən danışıqlar aparmağa çağırdı». Taliban rəhbərliyi eyni zamanda İran ilə sərhəd zolağına 25 min silahlı qüvvə cəmləşdirdi. Bu bölgədəki İran qoşunlarının ümumi sayı isə 270 min nəfərə çatırdı.

1998-ci ilin sentyabrın ortalarında BMT TŞ Əfqanıstanda diplomatların öldürülməsi faktını taliban tərəfindən beynəlxalq hüquq normalarının pozulması kimi qiymətləndirdi. Özlərinin bütün radikal əməllərini islam ənənələri ilə ört-basdır etməyə çalışan Taliban rəhbərliyi ölkədə Əfqanıstan İslam Əmirliyi yaradıldığını elan etdilər.

Məlum olduğu kimi, Məzari-Şərif ölkənin şimalında ən mühüm dayaq mərkəzi idi. 1998-ci il oktyabrın əvvəllərində taliblər buradakı İran konsulluğunun binasını yandırdılar, bir neçə iranlı diplomatı isə qətlə yetirdilər. Bu hadisə iki ölkə arasındakı münasibətləri son dərəcə gərginləşdirdi. Tehran buna kəskin etirazını bildirdi və öz qoşunlarını yenidən Əfqanıstan ilə sərhədə cəmləşdirməyə başladı. Beləliklə, İran ilə Taliban hökuməti müharibə həddinə çatdı. Yalnız BMT-nin işə qarışmasını və taliblərə qarşı müharibə halında məğlubiyyət təhlükəsini nəzərə alan Tehranın bundan ehtiyat etməsi (SSRİ-nin Əfqanıstandakı aqibəti kimi) iki ölkə arasında müharibənin qarşısını aldı. Tehran ilə Kabul arasında yalnız bütün ticarət və digər əlaqələr kəsildi. Əfqanıstana neft məhsulları göndərişinin dayandırılması Kabul üçün xüsusilə ağrılı oldu.

1998-ci il oktyabrın əvvəllərində İİR rəhbərliyi BMT Təhlükəsizlik Şurasının 1193 saylı qətnaməsinin qeyd-şərtsiz yerinə yetirilməsini tələb etdi. Qətnamədə atəşkəsə çağırış, Əfqanıstanda qeyri-puştu əhaliyə qarşı genosidin dayandırılması, həmçinin Əfqanıstanda nizamasalma üzrə «6+2» qrupunun (Özbəkistan, Türkmənistan, Tacikistan,

Pakistan, İran və Çin, sonra isə Rusiya və ABŞ əlavə olunmuşdu) qərarlarının yerinə yetirilməsi tələbi öz əksini tapmışdı (3).

İran tərəfi eyni zamanda Talibana təzyiqləri davam etdirirdi. 1998-ci il oktyabrın sonunda İran qoşunları Əfqanıstan sərhədinə söykənən bölgələrdə genişmiqyaslı «Zülfüqar-2» təlimlərinə başladılar. Belə bir şəraitdə taliban tərəfi sonuncu iranlı əsiri noyabrda Heratda İranın diplomatik nümayəndəliyinə təhvil verdi. Lakin buna baxmayaraq, Tehran irəli sürdüyü tələblərin yerinə yetirilməsində təkid edirdi. Bu tələblər sırasına ölənlərin cəsədlərinin qaytarılması, Talibanın əlində olan bütün iranlıların azad edilməsi, Taliban rəhbərliyinin İrandan rəsmi üzr istəməsi, Məzari-Şərifdə qırğın törətmiş şəxslərə sərt cəzalar verilməsi tələbləri daxil idi. Əvvəlki tələblər yerinə yetirilsə də sonuncu tələb yerinə yetirilməmiş qaldı (7).

İİR prezidenti M.Hatəmi 1998-ci ilin noyabrında bəyan etdi ki, yalnız real əməkdaşlıq Əfqanıstanda vətəndaş müharibəsinin dayandırılmasına kömək edə bilər. Buna görə də M.Hatəmi Əfqanıstanda, ölkənin bütün siyasi və dini qrup və partiyalarının iştirakı ilə geniş tərkibdə hökumət yaradılması təşəbbüsü ilə çıxış etdi. Onun fikrincə bu, Əfqanıstanda vəziyyətin sabitləşdirilməsinə xidmət etməli, həmçinin vətəndaş müharibəsinə son qoymağa və orada çoxdan gözlənilən sabitliyin və təhlükəsizliyin təmin olunmasına kömək etməli idi. Qeyd edək ki, əfqan partiyalarının lideri G.Hikmətyar öz növbəsində hələ İranda olarkən bildirmişdi ki, Əfqanıstanda vətəndaş müharibəsi yalnız onun daxili işlərinə xarici müdaxilənin dayandırılması şəraitində sona çata bilər. Xüsusilə Şah Məsuda böyük yardım göstərən Rusiya da əslində Əfqanıstanın daxili işlərinə qarışırdı. Rusiyada bu yardımı dayandırmağı və taliblərlə dialoqa başlamağı tələb edən məqalələr çap olunmağa başladı.

İran öz növbəsində devrilmiş Rəbbani hökumətini müdafiə edir və bütövlükdə «Taliban» hərəkatına və onun Əfqanıstanda «islamın ən təhrif olunmuş formasının» bərqərar edilməsinə yönəldilmiş xəttinin əleyhinə çıxırdı.

Beləliklə, 1999-cu il fevralın əvvəllərində Dubayda İranın və Taliban hərəkatının rəsmi nümayəndələri arasında ilk birbaşa danışıqlar keçirildi. Bu görüş Taliban hərəkatının formalaşdırdığı hökumətin Xarici işlər nazirliyinin nümayəndəsinin, iki tərəf arasında münasibətləri normal hala salmaq çağırışına cavab olaraq keçirilmişdi. Danışıqlar zamanı aydın oldu ki, münasibətlərin normal hala salınması üzrə İranın şərtlərindən biri Məzari-Şərifdə qətlə yetirilmiş iranlı diplomatların qatillərinin tapılıb cəzalandırılması idi.

Nəhayət, İranın atdığı addımlar öz bəhrəsini verdi və Taliban hökuməti ilə antitaliban koalisiyası bir masa arxasına gəldilər. 1999-cu ilin martında Aşqabadda Taliban ilə antitaliban qüvvələrin koalisiyası arasında üç gün davam edən danışıqlar uğurla keçdi (9). Beləliklə, taliblər və onların rəqibləri koalisiyalı hökumətdə hakimiyyət səlahiyyətlərinin bölüşdürülməsi haqqında başlıca razılığa gəldilər. İran tərəfi xoş məram nümayiş etdirərək qonşu Əfqanıstanın İƏT-ə daxil olması üçün razılıq verdi. Tehran özünün bu qərarını Əfqanıstan İslam Dövlətinin arzusuna uyğun olaraq qəbul etmişdi.

1999-cu il dekabrın ortalarında Əfqanıstanda vəziyyət, həmçinin əfqandaxili böhranın həlli üzrə mexanizmin işlənib hazırlanması məqsədilə Əfqanıstan prezidenti B.Rəbbani Tehranda İİR-in rəsmi şəxsləri ilə görüşdü. İran tərəfi Əfqanıstanda bütün siyasi və etnik qrupların iştirakı ilə geniş əsasda hökumətin yaradılması uğrunda çıxış edirdi. Prezident B.Rəbbani özünün iranlı həmkarına Əfqanıstanda siyasi və iqtisadi vəziyyət haqqında məruzə təqdim etdi.

İİR prezidenti M.Hatəmi 2000-ci ilin fevralında Əfqanıstan böhranının nizama salınması üzrə yeni təhəbbüslə çıxış etdi. Tehran İKT-nin sədri kimi sülhün əldə edilmə-

si yolunda ilk addım olaraq qonşu Əfqanıstana İKT-nin nümayəndə heyətinin göndərilməsi təklifilə çıxış etdi. Bu nümayəndələr əfqan qruplaşmalarının liderlərinə öz mülahizələrini bildirməli idilər. Bununla yanaşı İİR prezidenti M.Hatəmi qeyd etmişdi ki, məhz Əfqanıstan ilə qonşu dövlətlər əfqan probleminin nizama salınması işinə tutarlı yardım göstərə bilərlər.

Bunun nəticəsi idi ki, 2000-ci ilin mayında Tehranda Əfqanıstan üzrə BMT-nin xüsusi nümayəndəliyi açıldı. İran öz növbəsində İKT-nin sədri və Əfqanıstanın qonşusu kimi əfqan torpaqlarında tezliklə sülhün bərpası məqsədilə BMT və İKT arasında sıx əməkdahlıq yaradılması yönümündə səylərini artırdı.

Taliban hakimiyyətinin ölkədə yeritdiyi siyasət antitaliban qüvvələrinin ciddi narazılığına səbəb olurdu. Bununla əlaqədar Əfqanıstan prezidenti B.Rəbbani bildirmişdi ki, Taliban hərəkatının rəhbərləri dini şüarlar altında dövlətin müstəqilliyini və birliyini sarsıtmaq istəyirlər. Taliban hərəkatı narkotik vasitələrin qeyri-qanuni ticarətində aparıcı rol oynayır. Belə ki, 1999-cu ildə dünya üzrə tiryək istehsalının 75 faizi onun payına düşmüşdür (16). B.Rəbbani vurğulamışdı ki, Əfqanıstan, regionun bütün ölkələrilə mehriban qonşuluq münasibətləri yaratmaq istəyir. Onun fikrincə İƏT-in üzvü olan dövlətlər arasında səmimi əməkdaşlıq yaradılmadan sosial rifah və iqtisadi inkişaf mümkün olmayacaqdır.

İİR ilə Əfqanıstan arasında iqtisadi əlaqələr o qədər də geniş miqyas almamışdı. Bunun başlıca səbəbi sovet işğalı dövründən başlayaraq Əfqanıstanda hökm sürən qeyri-sabit şərait olmuşdu. İran islam rəhbərliyi Əfqanıstanda gedən prosesləri diqqətlə izləyir və öz milli maraqlarına uyğun olaraq bu ölkə ilə iqtisadi əlaqələr qurmağa çalışırdı. Əfqanıstanda mücahidlərin hakimiyyətə gəlişi ümid verirdi ki, iki ölkə arasında iqtisadi əlaqələrin inkişaf etdirilməsi üçün imkanlar yaransın. İİR rəhbərliyi sırf siyasi aksiyalarla yanaşı Əfqanıstana iqtisadi yardım göstərilməsi üzrə səylərini də davam etdirirdi. 1996-cı il iyunun 10-da Tehranda İran-Əfqanıstan iqtisadi komissiyasının ilk birgə sessiyası keçirildi. Sessiyanın işinə İranın Yaradıcı sihad naziri Q.Forukeş və Əfqanıstan baş nazirinin müavini, planlaşdırma naziri A.Cavid sədrlik edirdilər. İran artıq bu dövrədək Əfqanıstanda humanitar yardım çərçivəsində Bamiyanda universitet açmış, ölkədə onlarca məktəb tikmişdi.

Komissiyanın iclasında, əvvəllər Tehran tərəfindən ayrılmış, lakin 1994-cü ildə Kabulda Rəbbani qoşunları ilə «Hezbe vəhdət»in dəstələri arasında silahlı toqquşma alovlanan zaman dondurulmuş 50 milyon dollar vəsaitin istifadə edilməsi haqqında məsələ də həll olundu. İclasda həmçinin Əfqanıstana bu vəsaiti İrandan yanacaq və ərzaq alınmasına sərf etməsi təklif olundu. İyunun 12-də sessiya iştirakçıları tərəfindən ticarətdə, bank fəaliyyətində və kənd təsərrüfatında texniki əməkdaşlığı da nəzərdə tutan memorandum imzalandı. İmzalanmış sənədə əsasən İran özünün kommersiya bankının Kabulda filialını açmağı, həmçinin balıq yetişdirilməsi, heyvandarlıq, meş əvə otlaq təsərrüfatları sahələrində mütəxəssislər hazırlamaq məqsədilə 50 əfqan vətəndaşının qısamüddətli kurslara qəbul edilməsini nəzərdə tuturdu. İran tərəfinin köməyilə Kabulun elektrik şəbəkəsinin yenidən qurulması məsələsində də razılıq əldə olundu (10).

Lakin 1996-cı ilin yayında Əfqanıstanda hərbi-siyasi vəziyyət kəskinləşdiyinə görə bütün bu proqramm və planlar yerinə yetirilməmiş qaldı. İran ilə Əfqanıstan arasında qarşıdurma praktiki olaraq bu ölkələrin ticarət əlaqələrinin kəsilməsinə gətirib çıxardı. İran tərəfi Əfqanıstan ilə sərhəd bölgəsinə 270 min hərbi qulluqçu cəmlədikdən sonra taliblər ticarətin kəsilməsi səbəbindən hər gün on minlərlə dollar itirməli oldular. Çünki, iki ölkə arasında ticarət əlaqələri başlıca olaraq quru sərhədləri vasitəsilə həyata keçirilirdi. Digər tərəfdən bu iki ölkə arasındakı ticarət yollarının beynəlxalq əhəmiyyəti

də var idi. Belə ki, bu yollar vasitəsilə BƏƏ və İrandan Əfqanıstan və Pakistana yanacaq, elektronika avadanlıqları, avtomaşınlar və digər müxtəlif gündəlik istehlak malları göndərilməsi üçün istifadə olunurdu.

İran ilə Əfqanıstan arasında mədəni əlaqələrin inkişafında bir sıra amillər mühüm rol oynamışdır. Bunların sırasında dil, din, etnik, coğrafi və digər amilləri göstərmək olar. Lakin 1980-1988-ci illərin İraq-İran münaqişəsi, 1979-1989-cu illərdə sovet qoşunlarının Əfqanıstanı işğal altında saxlaması və bundan sonra ölkədə vətəndaş müharibəsinin yenidən alovlanması İran-Əfqanıstan mədəni əlaqələrinin inkişafına mənfi təsir göstərmişdi.

Qeyd edək ki, iki ölkənin bir-birilə yaxınlaşmasında dil amili müsbət rol oynamışdı. Təsadüfi deyil ki, 1992-ci il fevralın 19-da Tehranda İran, Əfqanıstan və Tacikistan nümayəndələrinin birgə müşavirəsinin gedişində fars dilli xalqların mədəni əməkdaşlığı təşkilatının yaradılması haqqında qərar qəbul olundu. Görüşdə İranın xarici işlər naziri Ə.Vilayəti, Tacikistanın xarici işlər naziri L.Kayumov və Əfqanıstan mücahidlərinin nümayəndələri – «Əfqanıstan islam cəmiyyəti»nin lideri B.Rəbbani və «Əfqanıstan İslam Birliyi Partiyası» rəhbərliyinin üzvü Ə.Şəffaq iştirak etmişdi. Əfqanıstan hökumətinə gəldikdə isə o, Ə.Vilayətinin qeyd etdiyi kimi, «əfqan probleminin bu ölkə xalqının əksəriyyətinin maraqlarına uyğun olaraq nizama salınmasından sonra» təşkilatda təmsil olunacaqdı.

Qeydlər:

*I. Rus dilində*
1. «Азия и Африка сегодня», 1995, № 10,
2. Арунова М.Р. Ситуация в Афганистане и перспективы ее развития // Исламизм и Экстремизм на Ближнем Востоке. Сб.ст. ИИИ БВ, М., 2001, с. 4-10
3. Арунова М.Р. Афганистан: трудные поиски путей к примирению// Афганистан: проблемы войны и мира. Сб. ст., вып. 3, ИВ РАН, 2000, с. 240
4. Сажин В.И. Иран против талибов. Новая война в Афганистане? // Исламизм и Экстремизм на Ближнем Востоке. Сб.ст. ИИИ БВ, М., 2001, с. 260.
5. Сикоев Р.Р. Ориентиры внешнеполитического курса талибов // Афганистан: проблемы войны и мира. Сб. ст., Вып. 3. ИВ РАН, 2000, с. 240
6. Умнов А.Ю. Афганистан в политике Москвы и Тегерана // Ближний Восток и современность. Сб. ст., ИИИ БВ, М., 2000, с. 247-250
7. Ушаков В.А. Афганистан и Иран//Афганистан: проблемы войны и мира. Сб.ст., вып. 3, ИВ РАН, 2000, с. 240

*II.İngilis dilində*
8. İran News. 30.10.1996.
9. Iran News. 15.03.1999.
10. Tehran Times 13.06.1996.
11. Tehran Times. 28.01.1998.
12. Tehran Times. 16.04.1998.
13. Tehran Times.06.09.1998.
14 . Tehran Times. 14.09.1998.

*III.Fars dilində*
15. Ettelaat. 09.06.1997.
16. Ettelaat. 12.06.2000.
17.Keyhan. 27.12.1997.

**АТАМОГЛАН МАМЕДЛИ**
*доцент БГУ*

## ИРАНО-АФГАНСКИЕ СВЯЗИ В ГОДЫ ПРАВЛЕНИЯ ТАЛИБАНА

В 1996 году силы талибана захватили Кабул. Раббани фактически потерял свою власть. В этих условиях Иран избрал путь переговоров с Талибаном. В это время Тегеран поддерживал Раббани и афганских шиитов. В середине 1997 года отношения между правительствами Ирана и Талибана еще более накалились.Афганская проблема была обсуждена на саммите ОИК в Тегеране. И Иран, и Пакистан были заинтересованы в урегулировании кризиса в Афганистане. Иран одновременно продолжал давление на Талибан. Экономические и культурные связи между ИРИ и Афганистаном были слабыми.

**ATAMOGLAN MAMMADLI**
*Assistant prof. BSU*

## IRAN-AFQHANISTAN CONNECTIONS IN THE YEARS OF TALIBAN AUTHORITY

Taliban strengths took possession the Kabul in 1996. Rabbani lost in fact authority. Iran held the negotiations way with Taliban in such condition. Tehran was defending the Rabbani and Afghan Shiites. Attitudes relations became more sharp with Iran between Taliban governments in middle, 1997. Afghan problem was discussed in the Tehran summit of the OIC. Iran and Pakistan was put in order in the Afghanistan of the crisis interesting. Iran at the same time continued Taliban pressures. Economical and cultural connections between IIR and Afghanistan was weak.

***Rəyçilər: t.e.n.R.Aslanov, t.e.d.S.T.Hacıyev.***

***BDU-nun Tarix fakültəsinin «Asiya və afrika ölkələri tarixi» kafedrasının 15 may 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №09).***